«Ziya Bünyadovun 90 illik yubileyinin keçirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 24 noyabr 2011-ci il tarixli, 1859 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədi ilə

**ƏMR EDİRƏM:**

1. Ziya Musa oğlu Bünyadovun 90 illik yubileyinin keçirilməsinə dair Azərbaycan Respublikası Təhsil Nazirliyinin Tədbirlər planı təsdiq edilsin (əlavə olunur).

2. Ali təhsil müəssisələrinin rektorlarına Tədbirlər planının icrasının təmin edilməsi və görülmüş işlər haqqında məlumatın 2012-ci il 10 iyun tarixinədək Təhsil Nazirliyinə təqdim edilməsi tapşırılsın.

3. Təhsil Nazirliyinin Elm (G.Hüseynova) şöbəsi əmrdən irəli gələn məsələləri həll etsin.

4. İctimaiyyətlə əlaqə şöbəsi (B.Hüseynzadə) əmrin «Azərbaycan müəllimi» qəzetində dərc olunmasını təmin etsin.

5. Əmrin icrasına nəzarəti öz üzərimə götürürəm.

Əsas: Azərbaycan Respublikası Prezidentinin 24 noyabr 2011-ci il tarixli, 1859 nömrəli Sərəcamı.

***Misir MƏRDANOV,***

***Azərbaycan Respublikasının təhsil naziri***

***16 yanvar 2012-ci il***

***№ 23***

---

**Əlavə:**

“Ziya Bünyadovun 90 illik yubileyinin keçirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 24 noyabr 2011-ci il tarixli, 1859 nömrəli sərəncamının icrası ilə əlaqədar Azərbaycan Respublikası Təhsil Nazirliyinin Tədbirlər planı